# London İqtisadiyyat və Siyasi Elmlər Məktəbi

London İqtisadiyyat və Siyasi Elmlər Məktəbi *(London School of Economics and Political Science, qısaca LSE)* Böyük Britaniyanın paytaxtı London şəhərində yerləşir və sosial elmlər üzrə ixtisaslaşmış dövlət tədqiqat universitetidir. İctimai elmlərin tədrisi üzrə dünyada Harvard, Kaliforniya Berkli və Stanford universitetləri ilə bir sırada dayanan ali məktəb Böyük Britaniyanın "The Times Higher Education World Reputation Rankings" jurnalının 2016-cı il üzrə reytinqində 24-cü, "QS World Universities Rankings" jurnalının 2015-2016-cı tədris ili üçün reytinq sıralamasında isə 35-ci yerdədir.

London İqtisadiyyat və Siyasi Elmlər Məktəbi Birlik Ölkələri Universitetləri, Professional Məktəblər Beynəlxalq Əlaqələr assosiasiyalarının, Təhsilin İdarəolunması Qlobal Alyansının, Rassel, Böyük Britaniya Universitetləri, "G5" (Böyük Britaniyanın 5 ali məktəbindən ibarət qeyri-formal qrup) qruplarının üzvüdür.

**Yerləşir:** Böyük Britaniya, İngiltərə, London şəhəri
**Yaranma tarixi:** 1895-ci il
**Tipi:** Dövlət
**Akademik heyəti:** 1500 nəfər
**Tələbələrin ümumi sayı:** 10600 nəfər
**Rəsmi saytı:** www.lse.ac.uk



## Tarixi

London İqtisadiyyat və Siyasi Elmlər Məktəbinin yaranma tarixi 1895-ci ilə təsadüf edir. 1894-cü il avqustun 4-də Fabian Cəmiyyətinin (Britaniya Sosialist Hərəkatı) üzvləri olan Vebbs ailəsi, Qrem Uelles və Corc Bernard Şou yeni məktəb yaradılması ideyasını müzakirə edirlər. Bu insanların şəxsi vəsaiti, eləcə də Fabian Cəmiyyətinin digər üzvü - hüquqşünas Henri Hant Hatçinsonun vəsiyyət etdiyi 200 min funt-sterlinq hesabına yeni məktəb açılır və yeni ali təhsil müəssisəsi London İqtisadiyyat Məktəbi adlandırılır. 1900-cü ildə London Universiteti tərəfindən tanınan məktəb həmin universitetin iqtisadiyyat fakültəsi kimi fəaliyyət göstərməyə başlayır, iki il sonra burada elmi dərəcələr verilir. Məktəbdə yeni sosial elmlər, coğrafiya, fəlsəfə, beynəlxalq əlaqələr, tarix, hüquq, psixologiya fənləri tədris edilir. Fəaliyyətinin ilk vaxtlarında bir binadan digərinə köçən ali məktəbin 1920-ci ildə ilk binasının təməlqoyma mərasimində kral V Georq iştirak edir. Hauton küçəsində yerləşən və hazırda Qədim bina adlanan tikilinin açılışı 1922-ci ildə baş tutur. Qədim Roma şairi Vergilinin "Georgiklər" əsərindən götürülmüş "Əşyaların səbəblərini bilmək" ifadəsi universitetin devizi, əməksevərlik rəmzi olan qunduz isə talismanı kimi qəbul olunur.

1920-ci illərdə London İqtisadiyyat Məktəbi və Kembric Universitetinin iqtisadçıları birgə fəaliyyət göstərirlər. Lakin 1930-cu illərdə onlar arasında (məktəbin professoru Fridrix Avqust Hayek və Kembric Universitetinin professoru Con Meynard Keyns) iqtisadi debatlar aparılır. Bu debatlar elmi dairələrdə məşhurlaşır. Mübahisələr iqtisadiyyatın tarixi, iqtisadçının cəmiyyətdə rolu, kimliyi (şəxsi ekspert və ya əməli məsləhətçi) və digər məsələləri əhatə edir. Həmin debatlar nəticəsində iki əsas iqtisadi məktəb meydana gəlir.

İkinci Dünya müharibəsi dövründə London İqtisadiyyat və Siyasi Elmlər Məktəbinin Kembric Universitetinin Piterhaus binasına köçürülməsi zərurəti yaranır və ali məktəb yalnız 1945-ci ildə London şəhərindəki binasına qayıdaraq fəaliyyətini davam etdirir. Həmin ildən məktəb sürətli inkişaf yoluna qədəm qoyur.

2004-cü ildən London İqtisadiyyat və Siyasi Elmlər Məktəbi bir sıra forumlar təşkil edir. Bu forumlar Asiyanın sürətlə inkişaf edən ölkələri ilə mütəmadi əlaqələr saxlamaq və mövcud əlaqələri möhkəmləndirmək məqsədi daşıyır.

## Universitet bu gün

London İqtisadiyyat və Siyasi Elmlər Məktəbinin mərkəzi kampusu London şəhərində Kler bazarı və Hauton-strit ərazilərində yerləşir. Universitetin Qədim bina adlanan əsas inzibati binası bu kampusdadır. Hazırda burada 30-a yaxın məktəb binası mövcuddur. Binalar bir-biri ilə körpülərlə birləşdirilib. Kampus ərazisində çoxlu sayda müxtəlif heykəllər qoyulub. Onların əksəriyyəti məzunların hədiyyəsidir. Kampusun genişlənməsi, əsasən sabiq direktor Entoni Giddensin rəhbərliyi dövründə (1996-2003) həyata keçirilib: Aldviç ərazisində yerləşən Konnot və Kliment binaları, IV Georq İctimai binası həmin dövrdə universitet tərəfindən əldə olunub, Layonel Robbins binası 35 milyon funt-sterlinq vəsait hesabına təmir edilib. Hazırda həmin binada Britaniya Siyasi və İqtisadiyyat Elmləri kitabxanası, eləcə də məktəbin digər kitabxanaları yerləşir. Britaniya Siyasi və İqtisadiyyat Elmləri kitabxanası ali məktəbin aparıcı elmi kitabxanasıdır. Məktəbin Yeni Akademik korpusu Böyük Britaniyanın ən ekoloji təmiz binasıdır. Qədim bina, Linkoln İnn Filds, Sent Kliment binaları, Yeni Akademik korpus, Qrosvernor Studiyaları Evi, Nortumberlend Evi, Hay-Holborn yataqxanaları, Britaniya Siyasi və İqtisadiyyat Elmləri kitabxanasının binaları memarlıq üslubu ilə seçilirlər.

London İqtisadiyyat və Siyasi Elmlər Məktəbində 23 akademik bölmə - Mühasibatlıq, İqtisadiyyat, İqtisadiyyat tarixi, Maliyyə, Coğrafiya və ətraf mühit, Antropologiya, Hökumət, Beynəlxalq inkişaf, Beynəlxalq tarix, Beynəlxalq münasibətlər, Hüquq, İdarəetmə, Riyaziyyat, Media və kommunikasiya, Fəlsəfə, məntiq və elmi metod, İctimai siyasət, İctimai psixologiya, Sosiologiya, Statistika fakültələri, Avropa, Gender, Metodologiya institutları, Dil Mərkəzi; 19 tədqiqat mərkəzi - Asiya, Yaxın Şərq, Bioelmlər və Cəmiyyət, Şəhərlər, İqtisadiyyat, İqlim Dəyişməsi və Siyasət, Diplomatiya və Strategiya, İqtisadi Göstəricilər, İqtisadiyyat və Əlaqəli Fənlər, Maliyyə Bazarları, Qlobal İdarəetmə, Səhiyyə və Sosial Təminat, Hüquq, Beynəlxalq Artım, Təbiət Fəlsəfəsi və Sosial Elmlər, Risk və Qayda, Sosial Ayrılıq (Ədalətsizlik), Məkan İqtisadiyyatı, Vaxt Sıraları mərkəzləri, Qrant Elmi-Tədqiqat İnstitutu fəaliyyət göstərir.

Ali təhsil müəssisəsində 1989-cu ildən Yay Məktəbi mövcuddur. Burada bakalavriat səviyyəsində 50-dən çox proqram təklif olunur və tədris iyul-avqust aylarında aparılır. London İqtisadiyyat və Siyasi Elmlər Məktəbi dünyanın müxtəlif universitetləri ilə əməkdaşlıq edərək beynəlxalq tədqiqat əlaqələri qurur, elmi tədqiqatlar üçün yeni maliyyə mənbələri cəlb edir. Ali məktəb Oksford, Harvard, Yel, Çikaqo, Nyu-York, Berkli, Kaliforniya universitetləri, İmperial Kolleclə olan çoxlu sayda sazişlər bağlayıb.

London İqtisadiyyat və Siyasi Elmlər Məktəbinin kitabxana sisteminin əsas hissəsi Britaniya Siyasi və İqtisadiyyat Elmləri kitabxanasıdır. İqtisadiyyat, ictimai və siyasi elmlər üzrə materialların toplandığı dünyanın ən böyük kitabxanası 1896-cı ildə yaradılıb və beynəlxalq mahiyyətə malikdir. Kitabxananın kolleksiyalarından hər gün 7000-ə yaxın tələbə və müəllim istifadə edir. Bununla yanaşı, kitabxanadan ildə 12 mindən çox digər istifadəçi yararlanır. Kitabxana kolleksiyasına 5 milyona yaxın kitab, 90 min tarixi kitabça, 31 min jurnal, 15 min elektron jurnal daxildir. Bütün materiallar eyni yerdə, Layonel Robbins binasında yerləşir. 2000-ci ildə binanın yenidən qurulmasına başlanılıb, 2001-ci il noyabrın 27-də isə rəsmi açılışı olub. 2002-ci ildə bina şahzadə Anna tərəfindən Vətəndaş Etibarı Mükafatı alıb. 20000 $m^2$ ərazini əhatə edən binanın oxu zalı 2000-ə yaxın oxucu tutumuna malikdir.

Bernard Şounun adını daşıyan kitabxana Qədim binada yerləşir. Burada, əsasən, bədii ədəbiyyat, asudə vaxt və əyləncə üçün nəzərdə tutulmuş materiallar toplanıb. Corc Bernard Şou tərəfindən Fabian Cəmiyyətinin banilərinə həsr olunmuş məşhur boyalı şüşə - Fabian Pəncərəsi bu kitabxanada yerləşir. Həmin vitraj 1978-ci ildə kitabxanadan oğurlanıb, 2005-ci ildə isə sabiq baş nazir Toni Bleyerin təşəbbüsü ilə tapılaraq kitabxanaya qaytarılıb.

London İqtisadiyyat və Siyasi Elmlər Məktəbinin kitabxana sistemi 1946-cı ildən BMT kitabxanasının depoziti kimi fəaliyyət göstərir. Məktəbin arxivində siyasi, biznes, sosializm, iqtisadiyyat, statistika, siyasi nəzəriyyə, nəqliyyat və digər sahələri əhatə edən sənəd və məktublar, şəkil və lent yazıları, nadir kitablar və tarixi əsərlər qorunub saxlanılır. Kitabxana sisteminin elektron resursları istifadəçilərə geniş spektrdə informasiya xidmətləri təklif edir. Elektron resurslara 20 mindən çox elektron jurnal, minlərlə kitab, sənəd, dövlət nəşrləri, statistik məlumatlar, məruzə və tezislər, məqalələr, qəzet və mətnlər, verilənlər bazası aiddir.

London İqtisadiyyat və Siyasi Elmlər Məktəbinin kitabxanalarından London Universiteti kolleclərinin bütün tələbələri istifadə edə bilər.

Ali məktəbdə bakalavriat səviyyəsində təhsil 3-4 il, magistratura səviyyəsində 1 ildir. Tədris sentyabr-oktyabr aylarında başlayır.

## İdarəçilik

London İqtisadiyyat və Siyasi Elmlər Məktəbinin idarəetmə orqanı Şuradır. Məktəbdə ümumilikdə 3000-ə yaxın işçi çalışır. Onların 1303 nəfərini professor-müəllim, qalanlarını isə inzibati heyət təşkil edir. Əməkdaşların 45%-i xarici ölkələrdən olan şəxslərdir.

London İqtisadiyyat və Siyasi Elmlər Məktəbinə qəbul prosesi rəqabətli şəkildə aparılır. Bir yer uğrunda 15-20-dən çox abituriyent mübarizə aparır. Ali məktəbin Tələbə Təşkilatı Milli, London Universiteti tələbə təşkilatlarının, eləcə də Milli Diplomdansonra Komitəsinin filialı olaraq böyük nüfuza malik gənclər birliyidir. Tələbə Təşkilatı ölkənin ən qədim tələbə qəzetlərindən biri olan *"The Beaver"* (qunduz) həftəlik qəzeti, *"Clare Market Review"* tələbə jurnalı buraxır. 1999-cu ildən təşkilatın "Pulse" radiostansiyası, 2005-ci ildən isə LooSE Televiziyası fəaliyyət göstərir. Məktəbin idman komandaları Böyük Britaniya Universitetləri və Kollecləri İdman Birliyinin *(Bucs)* üzvüdür. Məktəbin idman komandaları ümumilikdə "fırfırlar" (qıp-qırmızılar) adlandırılır.

London İqtisadiyyat və Siyasi Elmlər Məktəbinin Londonun mərkəzi rayonlarında 11 yataqxanası mövcuddur. Bu yataqxanalarda ümumilikdə 4000-nə yaxın tələbə məskunlaşa bilər, əsasən birinci kurs tələbələri yerləşdirilir. Lakin yenə də universitet bütün tələbələrini yerləşdirmək imkanına malik deyil, xüsusi ilə magistr və doktorantların yerləşdirilməsində müəyyən problemlər yaranır. Məhz buna görə də onlar özəl mənzillərdə məskunlaşırlar.

Bütün yataqxanalarda qiymətlər otaqlardan asılı olaraq dəyişir (1 həftə qalmaq qiyməti 70-250 funt-sterlinq təşkil edir) və ödəniş hər semestrin ikinci həftəsində edilməlidir. Tələbələrin əksəriyyəti özəl mənzillərdə yaşamağa üstünlük verir. Bunun üçün tələbələr dərslər başlamazdan minimum 2 həftə əvvəl Londona gəlməlidirlər. Ali məktəbin əməkdaşları Karr-Sonders, Ankoric, Banksayd, Qrosvenor Evi, Hay-Holborn, Nortumberlend, Pasfild, Rozberi yataqxanalarında məskunlaşdırılır.

London İqtisadiyyat və Siyasi Elmlər Məktəbi kütləvi mühazirələri ilə tanınır. Məktəbin hər həftə təşkil etdiyi mühazirələrdə tələbələr, məzunlar və digər geniş ictimaiyyət iştirak edə bilər. Mühazirələrdə milli və beynəlxalq məruzəçilər, səfirlər, yazıçılar, ölkə rəhbərləri, parlament üzvləri, aparıcı professor və dövlət xadimləri çıxış edir. Məktəbin məzunları burada təşkil olunan kütləvi mühazirələri "London İqtisadiyyat və Siyasi Elmlər Məktəbi təhsilinin müstəsna üstünlüyü" kimi dəyərləndirir.


*Ali məktəbin auditoriyasında*

## Büdcəsi və təhsil haqqı

London İqtisadiyyat və Siyasi Elmlər Məktəbinin endaument fondunun həcmi, 31 iyul 2015-ci ilə olan məlumata əsasən, 112, 9 milyon funt-sterlinq təşkil edib. Ali məktəbdə illik təhsil haqları təhsil səviyyələrinə görə dəyişir. 2015-2016-cı tədris ilində bakalavr səviyyəsində təhsil haqları 17040 funt-sterlinq, magistratura səviyyəsində ixtisasdan asılı olaraq 18600-24456 funt-sterlinq olub. Ali məktəbin akademik heyəti 1500 nəfər təşkil edir. Onların 50 faizə yaxını əcnəbidir. Ötən tədris ilində ali məktəbin tələbələrinin ümumi sayı 10600 nəfər olub. Onlardan 4415 nəfər bakalavrlar, 6185 nəfər aspirantlardır. 2015-ci maliyyə ilində ali məktəbin illik büdcəsi 279.1 milyon funt -sterlinq, illik gəlirləri 299,572 milyon funt-sterlinq, xərcləri 282,765 milyon funt- sterlinq təşkil edib. Əsas gəlir mənbələri təhsil haqları (153.3 milyon funt-sterlinq), bələdiyyələrin ayırdığı qrantlardan (24.4 milyon funt- sterlinq), elmi tədqiqatların həyata keçirilməsi üçün ayrılan qrantlardan ( 27 milyon funt-sterlinq), ianə və investisiyalardan əldə olunan vəsaitlər (5,8 milyon funt-sterlinq) təşkil edib. 2014-cü maliyyə ilində ali məktəbə kapital qoyuluşu 95 milyon funt-sterlinq olub. Məktəbdə 140 ölkədən 6885 əcnəbi tələbə təhsil alır. Universitetin kampusunda tələbələr 100-dən çox dildə danışır. Hazırda dünyanın 196 ölkəsində ali məktəbin 97500 nəfər məzunu çalışır.

London İqtisadiyyat və Siyasi Elmlər Məktəbində tələbələrə kredit və qrantlar şəklində dövlət yardımları, təqaüdlər təklif olunur. Londonda ailəsindən uzaqda yaşayan ingiltərəli tələbələrə dövlət tərəfindən 6928 funt-sterlinq məbləğində kredit, 2906 funt-sterlinq dəyərində xidmət qrantları (təqaüd) verilir. İngiltərədə yaşayan və valideynlərindən biri olmayan, ailəli, maliyyə durumu çətin olan, sağlamlıq imkanları məhdud tələbələrə dövlət tərəfindən xüsusi qrantlar ayrılır. Uels, Şotlandiya və Şimali İrlandiyadan olan tələbələr üçün müxtəlif dövlət maliyyə yardımları mövcuddur. Avropa Şurası ölkələrini təmsil edən tələbələr Böyük Britaniyanın dövlət qrantlarını almaq imkanına malik deyil. Əcnəbi tələbələrə də Böyük Britaniyanın dövlət qrantları verilmir, lakin onların təmsil etdiyi ölkələr tələbələri üçün bir sıra yardımlar təklif edir. Məktəbə qəbul olunmazdan öncə 3 il Böyük Britaniya ərazisində yaşayan, Avropa Şurası ölkələrini təmsil edən tələbələr kredit və qrantlara iddia edə bilərlər.


*Ali məktəbin kitabxanasında*



*Ali məktəbin 2016-cı il məzunları*

London İqtisadiyyat və Siyasi Elmlər Məktəbinin təqaüdləri aztəminatlı ailədən olan tələbələr üçün nəzərdə tutulub. Yerli tələbələr üçün 3 illik proqram üzrə təqaüdün məbləği 7500 funt-sterlinq təşkil edir. Ali məktəbin təqaüdünün maksimal məbləği ildə 2500 funt-sterlinqdir. Biznes fənləri üzrə təhsil alanlara ildə 5444 funt-sterlinq məbləğində Stelios təqaüdü verilir.

Universitet hər il maliyyə yardımına ehtiyacı olan tələbələrinə 15,5 milyon funt-sterliq xərcləyir. Bu vəsait tələbənin təhsil haqqından tutmuş bütün xərclərinin ödənməsini təmin edir. Ali məktəbin sədri Alan Elias, kansleri Princess Royal, direktoru Qreq Kalxoundır (onu yeni tədris ilindən Culia Blak əvəz edəcək).

## Məşhur məzunları

London İqtisadiyyat və Siyasi Elmlər Məktəbinin məzunlarından 18 nəfər Nobel mükafatına layiq görülüb. Onlardan ilk laureat məktəbin yaradıcılarından biri olmuş Corc Bernard Şoudur (1925-ci il), sonuncusu isə universitetin professoru Kristofer Pissaridesdir (2010-cu il). Ümumilikdə 34 dünya lideri, hazırda Böyük Britaniya İcmalar Palatasının 31, Lordlar Palatasının isə 42 üzvü bu ali məktəbdə təhsil alıb və çalışıb. II Marqaret (Danimarka kraliçası), Con Kennedi (ABŞ-ın sabiq prezidenti ), Pumarejo Alfonso Lopez (Kolumbiyanın sabiq prezidenti), Şri Narayanan (Hindistanın sabiq prezidenti), Con Atta Mills, Kvame Nkruma, Hilla Limann (Qananın sabiq prezidentləri), Como Kenyata (Keniyanın ilk prezidenti), Lord Ettli (Böyük Britaniyanın sabiq baş naziri),Pyer Trüdo (Kanadanın sabiq baş naziri), Kim Hon Kempbell (Kanadanın sabiq baş naziri), Romano Prodi (İtaliyanın sabiq baş naziri), Taro Aso (Yaponiyanın sabiq baş naziri), Moşe Şarett (İsrailin sabiq baş naziri), Marek Belka (Polşanın sabiq baş naziri), Yevgeniya Çarlz (Dominikanın sabiq baş naziri), Errol Uolton Barrou (Barbadosun sabiq baş naziri), Thanin Kraivichien (Tailandın sabiq baş naziri), Yan Çjeçi (Çinin 10-cu xarici işlər naziri) , Kamal Dərviş (Türkiyənin sabiq maliyyə naziri) universitetin məzunlarındandır. Ali məktəbin Nobel mükafatı laureatlarından Corc Bernard Şou, Bertran Rassel (ədəbiyyat üzrə), Ralf Banç, Filip Noel Beyker (sülh üzrə), Con Hiks, Fridrix Fon Hayek, Ceyms Mid, Artur Lüis, Merton Miller, Ronald Kouz, Amartya Sen, Robert Mandell, Corc Akerlof, Leonid Hurvits, Pol Kruqman, Kristofer Pissaridesin (iqtisadiyyat üzrə) adlarını çəkmək olar.

**Oruc MUSTAFAYEV,**
*"Azərbaycan müəllimi"*